Ədəbiyyat qəzeti



4 dekabr / 2021

# Akademik İsa Həbibbəyli TÜRKSOY tərəfindən "Nizami Gəncəvi" medalı ilə təltif olunub



Bu günlərdə Muğam mərkəzində keçirilən tədbirdə TÜRKSOY-un baş katibi Düsen Kaseinov tərəfindən "Nizami Gəncəvi ili"ndə xidmətlərinə görə AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli "Nizami Gəncəvi" medalı ilə təltif olunub. Akademik İsa Həbibbəyli TÜRKSOY-un Türk xalqlarının mədəniyyətinin dünyada tanıdılmasında mühüm xidmətlər göstərdiyini bildirib və qeyd edib ki, "Nizami Gəncəvi ili" çərçivəsində Düsen Kaseinovun rəhbərlik etdiyi təşkilatın fəaliyyəti, nəşr etdiyi "Nizamini oxuyaq" kitabı yüksək qiymətə malikdir. Eyni zamanda akademik İsa Həbibbəyli "Nizami Gəncəvi" medalı ilə təltif etdiklərinə görə TÜRKSOY-a və onun baş katibi Düsen Kaseinova öz dərin minnətdarlığını bildirib.